# Könüllülər hərəkatı yeni mərhələyə qədəm qoyur



***Prezident İlham Əliyevin 30 dekabr 2019-cu il tarixli sərəncamı ilə 2020-ci il Azərbaycan Respublikasında "Könüllülər ili" elan edildi. Ölkə Prezidentinin imzaladığı sərəncamda qeyd edilir ki, Azərbaycan xalqı əsrlər boyu xeyirxahlıq, fədakarlıq, gərəklilik, könüllü və təmənnasız kömək ənənələrini yaşatmışdır. Könüllülük xalqın, cəmiyyətin ən xoş niyyətləri uğrunda fəaliyyət göstərməyə sövq edən, insanları vahid niyyət ətrafında birləşdirən, vətəndaş, cəmiyyət və dövlətin birgə fəaliyyətinin ən uğurlu forması, zəngin milli-mənəvi dəyərlərimizin nadir töhfəsidir. Könüllülük həm də vətənpərvərlik məktəbi, öz xalqına, dövlətinə, milli-mənəvi dəyərlərə bağlılıq və xidmət örnəyidir. Bu fəaliyyətin təşviqi məqsədilə dövlətimiz tərəfindən zəruri addımlar atılmış, normativ hüquqi baza təkmilləşdirilmiş, dövlət dəstəyi mexanizmləri formalaşdırılmışdır.***

Könüllülük bir çox fəaliyyət sahələrinə nüfuz edərək ümummilli hərəkata çevrilmiş, ölkəmizin hər bir bölgəsinə, ictimai həyatın müxtəlif sahələrinə yayılaraq, cəmiyyətimizin bütün təbəqələrini əhatə etmiş, gənclərimizin həyat tərzinə çevrilmişdir. ASAN, "Regional İnkişaf" İctimai Birliyi, "Bir" tələbə könüllüləri və digər könüllü hərəkatları yaranmış, mərkəzi və yerli icra hakimiyyəti orqanlarında on minlərlə gənci birləşdirən könüllü qruplar formalaşmışdır. Könüllülərimiz öz kreativliyi, təşəbbüskarlığı, innovativ düşüncə tərzi və müasir dünyagörüşləri ilə qoşulduqları fəaliyyətə yeni nəfəs vermiş, ölkəmizdə "Avroviziya" mahnı müsabiqəsi, I Avropa Oyunları, "Formula 1" yarışları, IV İslam Həmrəyliyi Oyunları kimi irimiqyaslı beynəlxalq tədbirlərin həyata keçirilməsində əvəzsiz rol oynamışlar. Bu il 5 Dekabr – Beynəlxalq Könüllülər Günü ərəfəsində Azərbaycanda ilk dəfə keçirilmiş və bütün könüllüləri əhatə etmiş Könüllülük həftəsi ölkəmizdə könüllülüyün yeni mərhələyə qədəm qoyduğunu və böyük potensiala malik olduğunu nümayiş etdirmişdir. Ölkəmiz və gəncliyimiz üçün böyük əhəmiyyət kəsb edən bu sərəncamın məzmun və mahiyyəti, Azərbaycan gəncləri qarşısında imkan və inkişaf perspektivləri barədə fikir və mülahizələri, təəssüratları bölüşmək xoş və qürurvericidir.

Azərbaycan gəncliyinin qüdrətli hamisi və müəllimi olan Heydər Əliyev haqlı olaraq qeyd edirdi ki, savadı, təhsili olmayan gənc həyatda layiqli yer tuta bilməz. Heydər Əliyev 1997-ci ildə respublikamızın və xarici ölkələrin ali məktəblərinə qəbul olunmuş tələbələrin bir qrupu ilə görüşündəki nitqində deyirdi ki, müasir həyat və dünyanın gələcəyi insanlardan daha çox bilik tələb edir, çünki gələcək bilikli, elmli insanların çiyinləri üzərində qurulacaqdır.

Ulu öndər Heydər Əliyevin müdrik siyasi kursunun, fundamental milli inkişaf konsepsiyasının layiqli davamçısı olan cənab Prezident İlham Əliyev bu gün gənclər siyasətini müasir dövrün tələblərinə, yeni beynəlxalq çağırışlara uyğun şəkildə çox uğurla davam etdirir. Xüsusi qeyd etmək istəyirəm ki, dövlət başçımızın qeyd olunan sərəncamı gənclərin fəaliyyətinə



yeni məzmun, yeni ruh, yeni nəfəs gətirəcək. Sərəncam gənclərin kommunikativ imkan və bacarıqlarının artmasına, ölkəmizin ictimai-siyasi və mədəni həyatında fəal təmsil olunmalarına, onların daxili mənəvi aləminin zənginləşməsinə, dünyagörüşlərinin genişlənməsinə, elmi-intellektual potensiallarının yüksəlməsinə müstəsna təsir göstərəcək. Ölkə Prezidenti cənab İlham Əliyev Azərbaycanın gələcəyini sağlam və müasir düşüncəli, vətənpərvər gəncliyin fəaliyyətində görür və əslində, sözügedən sərəncamla bu fəaliyyətin miqyasının daha da genişlənməsinə, keyfiyyətcə yeni inkişaf mərhələsinə daxil olmasına əlverişli şərait yaradır.

Bu gün Azərbaycan gəncliyinin səsi dünyanın bir çox ölkələrindən gəlir. Azərbaycan gəncləri yeni ixtiraları ilə dünyaya səs salır, olimpiadalarda, beynəlxalq yarışlarda qızıl medallara sahib çıxaraq bayrağımızı ən yüksək zirvələrdə dalğalandırır, işğal altında olan torpaqlarımızın bir hissəsinin geri qaytarılmasında hünər göstərirlər.

Azərbaycan gəncləri fəaldır, vətənpərvərdir və bu, təqdirəlayiq haldır. Eyni zamanda, gənclərin üzərinə çox böyük vəzifələr düşür. Gənclərimiz vətənpərvər ruhda tərbiyə olunmalı, milli və dövlət maraqlarımızı qorumalıdırlar.

Bakı Slavyan Universitetində (BSU) könüllülük fəaliyyətinin sistemləşdirilməsinə, könüllülük mədəniyyətinin formalaşmasına xüsusi diqqət yetirilir. Universitetin tələbə-gəncləri könüllülük hərəkatında fəal iştirak edir və bu hərəkata böyük töhfələr verirlər. Professor-müəllim və tələbə heyəti ölkəmizdə keçirilən ictimai-siyasi və mədəni-kütləvi tədbirlərdə fəal iştirak edir, tələbələrin rəsmi dövlət orqanlarının, idarə və təşkilatlarının keçirdikləri tədbirlərdə iştirakı təmin edilir.

Universitetdə "Bakı – 2017" IV İslam Həmrəyliyi Oyunlarının təbliğinə həsr olunmuş İslam Həmrəyliyi Oyunları Əməliyyat Komitəsinin, Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqı (ATGTİ) və İnsan Resursları Departamentinin nümayəndələrinin iştirakı ilə "Bakı – 2017" IV İslam Həmrəyliyi Oyunlarında tələbələrin könüllülüyə cəlb edilməsi məqsədilə bir sıra sorğu və təqdimatlar keçirilmişdir.

BSU-nun tələbələri "Bir" Tələbə-Könüllü proqramında da yaxından iştrak edirlər. Məlum olduğu kimi, "Bir" Tələbə - Könüllü proqramı tələbələrlə işin təşkilinin sistemləşdirilməsi, vahid məlumat bazasının təşkili, onların könüllü fəaliyyətlə məşğul olmasının stimullaşdırılması məqsədilə Təhsil Nazirliyinin təşəbbüsü ilə yaradılıb. Ümumilikdə, universitetimizin tələbə-könüllüləri respublika və beynəlxalq miqyaslı bütün tədbirlərdə BSU-nu layiqincə təmsil edirlər.

Azərbaycan dövləti ölkə gənclərinə hərtərəfli qayğı və diqqət göstərdiyi kimi, gənclərimiz də dövlətin etimadını hər addımda doğrultmaq üçün əllərindən gələni əsirgəmirlər. Hər gün, hər addımda şahidi oluruq ki, Azərbaycan gəncliyi öz dövləti və lideri ətrafında sıx birləşib. BSU-nun tələbələri də bu sırada təşəbbüslə, inamla, məhəbbətlə önəmli mövqe tuturlar.

***Cəfər ADİLOV,***
***Bakı Slavyan Universitetinin***
***Tələbə Gənclər Təşkilatının sədri***